# DÖRD QAYDA

Müəllif: Muhəmməd ət-Təmimi (rahiməhullah)

Tərcümə edən: Elxan abu Omar əl-Qazveyni

## Müqəddimə

بسم الله الرحمن الرحيم

Əziz oxucu, Allah səni haqqı öyrənib ona əməl etməyə müvəffəq etsin! Bildiyin kimi, tövhid (Uca Allahı bütün ibadətlərdə təkləşdirmək) Uca Rəbbimizin bizim üzərimizdə olan haqqıdır. *Allah Rəsulu (Allahın ona salavatı və salamı olsun) Muaz ibn Cəbələ bu  barədə sual verərək soruşur:* ***"Ey Muaz, bilirsənmi Allahın qulları üzərində və qulların Allah üzərində olan haqqı nədir?"*** *Muaz cavab verərək deyir:* ***"Allah və Rəsulu daha yaxşı bilir."*** *Allah Rəsulu (Allahın oma salavatı və salamı olsun) cavab verərək buyurur:* ***"Allahın qulları üzərində olan haqqı odur ki,*** *(qulları)* ***yalnız Ona ibadət etsinlər və Ona heç nəyi şərik qoşmasınlar. Qulların isə Allah üzərində olan haqqı odur ki, Ona şəriklər qoşmasalar,*** *(Allah)* ***onlara əzab verməsin."*** (Səhih əl-Buxari, 2856)

Bu risalə özündə ən mühüm olan bəzi məsələləri əhatə edir və Uca Allahın tövhidinə xələl gətirmək istəyənlər və ya onu düzgün başa düşməyənlər üçün yazılmış bir risalədir ki, onlarda olan şübhələrə cavab verir. Müəllifi Muhəmməd ibn AbdulVahhab ibn Suleyman ət-Təmimi olan bu risalə **"DÖRD QAYDA"** adlanır.

Elxan əbu Omar əl-Qazveyni

## “DÖRD QAYDA” risaləsi

Əzəmətli Ərşin Rəbbi olan Kərim Allahdan istəyirəm ki, səni bu dünyada və axirətdə qorusun, harada olsan belə səni bərəkətli etsin və səni ***nemət verildikdə şükür edən, bəla gəldikdə səbr edən və günah etdikdə bağışlanma diləyən*** qullarından etsin. Çünki bu üç şey - xoşbəxtliyin ünvanıdır.

Bil ki, Allah səni Öz itaətinə yönəltsin, İbrahimin *(Allahın ona salavatı və salamı olsun)* milləti (dini) olan Həniflik (batildən haqqa meyl etmək) - dini Ona xas edərək yalnız Allaha ibadət etməyindir. Necə ki, Uca Allah bu barədə buyurur:

***“Mən cinləri və insanları yalnız Mənə ibadət etmələri üçün yaratdım (Zariyat, 56).”***

Artıq bildikdən sonra ki, Allah səni yalnız Ona ibadət etmək üçün yaratmışdır, bilməlisən ki, namaz təharət (qüsl, dəstamaz) olmadan namaz adlanmadığı (qəbul olunmadığı) kimi, ibadət də tövhid olmadan ibadət adlanmaz (qəbul olunmaz). Hədəs (insanların təbii ehtiyaclarını ödəməsi) baş verdiyində təharəti batil etdiyi kimi, ibadətə də şirk daxil olarsa onu fəsada aparar. Sən bildikdən sonra ki, şirk ibadətə qarışdıqda onu fəsada aparır, əməli puç edir və sahibini də əbədi olaraq Cəhənnəmə salır, bununla da sən ən mühüm olanı öyrənmiş oldun, ola bilsin ki, Allah bununla səni tələyə düşməkdən qoruya. O da Allaha şərik qoşmaqdır. Necə ki, Uca Allah bu barədə buyurur:

***“Allah Ona şərik qoşulmasını əsla bagışlamaz. Ondan*** *(şirkdən)* ***aşağı olan günahları isə istədiyinə bağışlayır (ən-Nisa, 48).”***

Həmin bu “dörd qaydanın dəlillərini” Uca Allah Öz Kitabında zikr etmişdir...

## BİRİNCİ QAYDA

**Bilməlisən ki, Allah Rəsulunun** *(Allahın ona salavatı və salamı olsun)* **döyüşdüyü kafirlər də təsdiq edirdilər ki, hər şeyi yaradan və idarə edən**

(tədbir görən) **mәhz Allahdır. Lakin bu onları İslama daxil etmədi.** Buna dəlil olaraq Uca Allah buyurur:

***"De - sizə göydən və yerdən ruzi verən, qulaqlara və gözlərə sahib olan, ölüdən diri və diridən də ölü çıxaran, işləri idarə edən kimdir?! Deyəcəklər – Allah! De – elə isə Allahdan qorxmursunuz? (Yunus, 31)."***

## İKİNCİ QAYDA

**Onlar deyərlər, bizim onları** (Allahdan qeyrilərini) **çağırıb onlara tərəf yönəlməyimizin səbəbi yalnız** (Allaha) **onlar vasitəsi ilə yaxınlaşma və şəfaət diləməkdir.** Yaxınlaşmaya dəlil olaraq Uca Allah buyurur:

***"Allahdan qeyrilərini*** *(bütləri)* ***özlərinə dost tutanlar*** *(deyərlər)* ***- biz onlara yalnız bizi Allaha yaxınlaşdırmaları üçün ibadət edirik. Şübhəsiz ki, Allah ixtilafda olduqları məsələlərdə onlar arasında hökm verəcəkdir. Həqiqətən də Allah kafir olan yalançıya hidayət verməz (Zumər, 3)."***

Şəfaətə dəlil olaraq isə Uca Allah buyurur:

***"Onlar Allahı qoyub onlara nə bir zərər, nə də bir fayda verməyən bütlərə ibadət edib, "bunlar Allah yanında bizim şəfaətçilərimizdir" - deyərlər (Yunus, 18)."***

*Şəfaət iki növdür: Qəbul olunmayan və qəbul olunan şəfaət.* Qəbul olunmayan şəfaətə misal olaraq - yalnız Allahın qadir olduğu şeyi Allahdan qeyrisindən istəmək. Buna dəlil olaraq Uca Allah buyurur:

***"Ey iman gətirənlər! Alış-verişin, dostluğun və şəfaətin fayda verməyəcəyi gün gəlməmişdən öncə, sizə verdiyimiz ruzidən xərcləyin. Kafir olanlar – məhz onlar özlərinə zülm edənlərdir (Bəqara, 254)."***

Qəbul olunan şəfaət isə yalnız Allahdan tələb olunur, şəfaət edən şəxs (Allah tərəfindən) şəfaətlə ikram olunmuş, şəfaət olunan şəxs isə, (bu dünyada) etdiyi əməlindən və dediyi sözlərindən (Allahın) razı qaldığı kəsdir və yalnız Allahın iznindən sonra (şəfaət olunur). Bu barədə Uca Allah buyurur:

***"Onun izni olmadan kim Onun yanında şəfaət edə bilər? (Bəqərə, 255)."***

# ÜÇÜNCÜ QAYDA

**Peyğəmbər *(Allahın ona salavatı və salamı olsun)* ibadətlərində müxtəlif olan insanlara göndərildi. Onlardan kimisi mələklərə, kimisi Peyğəmbərlərə, kimisi salehlərə, kimisi daşlara və ağaclara, kimisi də Günəşə və Aya ibadət edirdi. Allah Rəsulu *(Allahın ona salavatı və salamı olsun)* onlar arasında fərq qoymadan onlarla döyüşdü.** Bu barədə Uca Allah buyurur:

***"Fitnə** (şirk) **ortadan yox olub, din bütünlüklə Allaha aid edilənə qədər onlarla vuruşun (Ənfal, 39)."***

Günəşə və Aya (ibadət edilməsinə) dəlil isə, Uca Allah buyurur:

***"Gecə və gündüz, günəş və ay Onun ayələrindəndir. Siz nə günəşə nə də aya səcdə etməyin. Əgər Ona** (Allaha) **ibadət edənlərsinizsə, onları xəlq edən Allaha səcdə edin (Fussilət, 38)."***

Mələklərə (ibadət edilməsinə) dəlil isə, Uca Allah buyurur:

***"O, sizə Mələkləri və Peyğəmbərləri özünüzə rəblər qəbul etməyi əmr etməz (ali-İmran, 80)."***

Peyğəmbərlərə (ibadət edilməsinə) dəlil isə, Uca Allah buyurur:

***"O vaxt ki, Allah deyəcəkdir: "Ey Məryəm oğlu İsa! Sənmi insanlara "Allahı qoyub məni və anamı ilahlar qəbul edin" söylədin?!"** (İsa) **dedi: "Sən hər cür eyibdən nöqsansızsan! Haqqım çatmayan bir şeyi demək mənə yaraşmaz. Əgər mən onu demiş olsaydım, Sən bunu bilərdin. Sən mənim nəfsimdə** (qəlbimdə) **olanı bilirsən, mən isə Sənin Özündə olanı bilmirəm. Həqiqətən də qeybləri bilən məhz Sənsən" (Maidə, 116)."***

Salehlərə (ibadət edilməsinə) dəlil isə, Uca Allah buyurur:

***"Onların** (Allahdan qeyri) **dua etdiklərinin özləri Allaha tərəf vəsilə axtarırlar - hansı daha yaxın olacaq deyə - Onun rəhmətini diləyib, əzabından qorxurlar (İsra, 57)."***

Daşlara və ağaclara (ibadət edilməsinə) dəlil isə, Uca Allah buyurur:

***"Elə isə Latı və Uzzanı görmədinizmi?! Həmçinin digər üçüncü olan Mənatı?! (Nəcm, 19-20)".***

*Həmçinin Əbu Vaqid əl-Leysinin (Allah ondan razı olasun) hədisində deyilir:* ***"Peyğəmbərlə** (Allahın ona salavatı və salamı olsun)* ***birlikdə Huneyn döyüşünə çıxdıq və biz İslamda yeni idik. Müşriklərin bir sidr ağacı vardı, onun yanında etikaf edər** (ibadət məqsədilə oturar)* ***və ondan öz silahlarını asardılar və onu Zatu Ənvat adlandırardılar. Biz də bir sidr ağacının yanından keçdikdə, Allah Rəsuluna** (Allahın ona salavatı və salamı olsun)* ***dedik: Ey Allahın Rəsulu, bizim üçün də onların Zatu Ənvat** (ağacı)* ***kimi belə bir Zatu Ənvat** (ağacı)* ***et** (düzəlt)*. ***Peyğəmbər** (Allahın ona salavatı və salamı olsun)* ***dedi: Allahu Əkbər, nəfsim Əlində olan (Allaha) and olsun ki, sizin dediyiniz Musanın (Allahın ona salavatı və salamı olsun) qövmünün ona dediyinə bənzədi: "(Dedilər, "ey Musa) bizim üçün də onların ilahları kimi ilah et** (düzəlt)*". *(Musa dedi)* ***"Həqiqətən də siz cahil bir qövmsünüz" (Əraf 138)."*** (Sunən ət-Tirmizi, 2180)

## DÖRDÜNCÜ QAYDA

**Zamanımızda olan müşriklər şərik qoşmaqda əvvəlkilərdən daha pisdirlər. Çünki əvvəlkilər əmin-amanlıqda Allaha şərik qoşar, dara düşdükdə isə xalis Allaha ibadət edərdilər. Zamanımızda olan müşriklər isə həm əmin-amanlıqda, həm də dara düşdükdə Allaha şərik qoşurlar.** Buna dəlil olaraq Uca Allah buyurur:

***"Onlar** (müşriklər)* ***gəmiyə mindikdə** (batmaq qorxusundan)* ***dini xalis Allaha yönəldərək Ona dua edərdilər. Elə ki,** (Allah onları)* ***quruya çıxarar, yenə də** (Allaha)* ***şərik qoşarlar (Ənkəbut 65)."***

Bununla da DÖRD QAYDA (risaləsi) bitdi.

Tərcümə etdi: Elxan abu Omar əl-Qazveyni